ƏLİBALA MƏHƏRRƏMZADƏ

# PREZİDENT İLHAM ƏLİYEVİN İQTİSADİ VƏ SİYASİ STRATEGİYASI

- 10264 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı,
"Araz"-2010

66.3(5Az)8+66.
M 48

*Rəyçilər:* ***Ziyad Səmədzadə***
***Akademik, Milli Məclisin***
***iqtisadi-siyasət komissiyasının sədri***

***Akif Bayramov***
***Filologiya elmləri doktoru, professor,***
***Azərbaycan Respublikası Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri***

*Elmi redaktoru:* ***Tahir Məmmədov***
***Siyasi elmlər üzrə fəlsəfə doktoru,***
***Respublikanın əməkdar jurnalisti***

*Redaktor:* ***Alim Məhərrəmli***

***Əlibala Məhərrəmzadə***
***Prezident İlham Əliyevin***
***iqtisadi və siyasi strategiyası***
***Bakı, "Araz" nəşriyyatı, 2010, 500 səh.***

Ə $\frac{4990876700}{050}$ 2010

© "Araz", 2010

# GİRİŞ

Bu gün Azərbaycana Heydər Əliyev yolunun layiqli davamçısı İlham Əliyev başçılıq edir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir. Azərbaycan xalqının iradəsini ifadə edən İlham Əliyev müstəqil Azərbaycanın yeni prezidenti, həm də dünya azərbaycanlılarının yeni lideridir.

Azərbaycanın yeni prezidenti İlham Əliyev bütün dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir. O, doğma Azərbaycanda böyük hörmətə və nüfuza malikdir. İndi Azərbaycan prezidentinin siyasi portreti bütün dünyada məşhurdur.

Görkəmli siyasi və dövlət xadimi İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri, dahi dövlət xadimi Heydər Əliyevin oğludur. O, peşəkar siyasətçidir. 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdir. Orada elmi-pedaqoji fəaliyyətə başlamış (1982), aspirant, müəllim olmuşdur. Tarix elmləri namizədidir (1985). 1991-ci ildən Moskvada "Oriyent" şirkətinin baş direktoru işləmiş, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti (1994-cü ildən) və birinci vitse-prezidenti (1997-ci ildən), Azərbaycan Respub-

likasının baş naziri (2003) vəzifəsində çalışmışdır. Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur.

İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanması və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətləri vardır. İlham Əliyevin böyük əməyi olan neft strategiyasının həyata keçirilməsi, beynəlxalq şirkətlərlə neft müqavilələrinin imzalanması nəticəsində 1994-2000-ci illərdə xarici şirkətlər Azərbaycana 800 milyon ABŞ dolları məbləğində bonus vermişlər. Azərbaycanın neft sektorunda 30 mindən artıq iş yeri

açılmışdır.

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmiş, xüsusi prezident fərmanı ilə 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı qəbul olunmuşdur. Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsəqyönlü daxili və xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilməkdədir. Bu zirvənin fəth edilməsində isə başlıca amil uğurlu iqtisadi siyasətdir.

Azərbaycan dövlətinin müstəqillik dövründə sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar, xüsusilə son beş ildə ölkə İqtisadiyyatının sıçrayışlı inkişafı və onun iqtisadi artım tempinə görə dünyanın lider ölkəsinə çevrilməsi, ÜDM-in 10 dəfəyə qədər artımı, həmçinin dövlət büdcəsinin 9,7 dəfə yüksəlməsi, neft strategiyasının uğurla reallaşdırılması bilavasitə düzgün iqtisadi siyasətin həyata keçirilməsi və onların dövlət tərəfindən tənzimlənməsi ilə bağlıdır.

Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsinin vacibliyini göstərən C.M.Keyns yazırdı: «Dünyanı idarə edən ayrı- ayrı ölkələrin dövlət başçılarıdır. Onların buraxdı-

ğı cüzi səhvlər böyük fəlakətlərə səbəb olur». Azərbaycanın timsalında bu, daha aydın görünür. Belə ki, 1991-1993-cü illərdə ölkə rəhbərliyinə idarəçilik bacarığı və təcrübəsi olmayan şəxslərin gəlməsi, ölkənin müstəqil bir dövlət kimi yox olmasına səbəb olacaqdı. Ümummilli Liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə yenidən qayıdışı əhalini və dövləti böyük faciələrdən xilas etdi, bu isə müstəqil Azərbaycanın tərəqqisinə səbəb oldu.

Ümummilli Liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlər xalqımızın milli mənlik şüurunun oyanması, azadlığa və müstəqilliyə qovuşmaq arzularının çiçəklənməsi, ictimai həyatımızın, iqtisadiyyatımızın bütün sahələrində, elm və mədəniyyətimizin inkişafında böyük nailiyyətlərin əldə edilməsi ilə əlamətdar olmuşdur.

Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiya prosesinin hazırkı möhkəm təməli Ümummilli Liderimiz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həmin illərdə yaradılmış potensiala əsaslanır.

Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxaran Ümummilli Liderimiz Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir: ictimai-siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz - bü-

tün bunlar günümüzün reallığıdır.

Ümummilli Liderimiz Heydər Əliyevin milli neft strategiyası Azərbaycana böyük siyasi və iqtisadi dividentlər gəti rib, ölkəmizin Qərbə inteqrasiyasına geniş yol açıb, bu prosesi sürətləndirib. İndi biz bu möhtəşəm strategiyanın real nəticələrini, bəhrələrini görürük. «Əsrin müqaviləsi» çərçivəsində Bakı - Tbilisi - Ceyhan neft-boru kəməri Azərbaycanı demokratik Qərb dünyası ilə daha sıx birləşdirir və ölkəmizə milyardlarla dollar həcmində mənfəət gətirir. Azərbaycan dövlətinin iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA nəqliyyat dəhlizinin reallaşması da Ümummilli Liderimizin bəşəri xidmətlərindəndir.

Bu gün müasir Azərbaycan dövləti özünəməxsus inkişaf yolu ilə gedir. Bu inkişafın təməl daşları Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyev məktəbinin yetirməsi, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər, imzaladığı fərman və sərəncamlar, xalqla birbaşa ünsiyyətdə olması ümummilli liderimiz tərəfindən başlanılmış işlərin məntiqi davamıdır. Memarı və qurucusu ulu öndər Heydər Əliyev olan müstəqil dövlətimiz böyük şəxsiyyətin Azərbaycan xalqına ən böyük töhfəsidir. Hər bir Azərbaycan vətəndaşının borcu isə ulu öndərin şah əsəri olan Azərbaycanı

qorumaq və daha da inkişaf etdirməkdir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev göstərir ki, «Biz gələcəyə çox böyük nikbinliklə baxırıq. Siyasi və ictimai-siyasi vəziyyət baxımından Azərbaycan çox sabit ölkədir və Azərbaycana birbaşa xarici investisiyaların qoyulması bunu əks etdirir. İqtisadi potensialın möhkəmləndirilməsində uğurlar göz qabağındadır. Eyni zamanda, bütün bu nailiyyətlərə baxmayaraq, Azərbaycanda islahatlar davam etdirilir və etdirilməlidir. Həm siyasi sahədə, həm də iqtisadi sahədə. Çox sevindirici haldır ki, ən böyük maliyyə qurumu olan Dünya Bankı bu il Azərbaycanı dünya miqyasında bir nömrəli islahatçı ölkə kimi tanıyıbdı. Bu onu göstərir ki, bizim islahatlarımız həqiqətən çox cəsarətlidir, uğurludur və əhəmiyyətlidir».

Son dövrdə ölkədə aparılan uğurlu islahatlar respublikada düzgün fiskcal və monetor siyasət nəticəsində dövlət büdcəsinin sürətlə artmasına səbəb olmuşdur. Bu işdə düzgün vergi, gömrük və xarici ticarət siyasətinin aparılması mühüm rol oynamışdır. Bütün bunlar isə ölkədə maliyyə sabitliyinin təmin edilməsi, ekoloji tarazlıq, infrastruktur sa-

hələrinin inkişafı nəticəsində ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə səbəb olmuşdur. İlham Əliyev cənablarının Azərbaycan Respublikasına prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatının yeni sürətli inkişaf erası başlanmışdır. Bu isə dövlət tərəfindən, dövrün tələblərinə uyğun olaraq, iqtisadi islahatların kompleks və əlaqəli şəkildə aparılması, proqnozlar əsasında formalaşdırılmış dövlət proqramlarının, yerli, regional və beynəlxalq investisiya layihələrinin həyata keçirilməsi və dünya iqtisadiyyatına inteqrasiya ilə əldə edilmişdir. Bütün bunların məntiqi nəticəsidir ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və mövqeyi ilbəil artmaqdadır.

# İNAMLA SABAHA DOĞRU

2003-cü ilin prezident seçkilərində qələbə qazanan İlham Əliyev ulu öndər, ümummilli lider H.Əliyevdən sonra ikinci quruculuq dövrünü yaşatmaqdadır. İlham Əliyev hələ andiçmə mərasimində ölkənin çoxsaylı problemlərindən geniş söhbət açmışdır. Onun oradakı nitqini dönə-dönə oxuyub təhlil etdikcə qarşıdakı illərdə görüləcək işlərin əzəməti az qala adamı heyran edir.

Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişafı dövlətin daim diqqət mərkəzindədir. 2004-cü ildə ölkə prezidentinin yerli sahibkarlarla görüşü, onlarla apardığı açıq söhbətlər deyilənlərə bir daha əyani sübut oldu. Sahibkarlarla görüşündə İlham Əliyev geniş nitq söylədi və bildirdi ki, müasir Azərbaycan həyatında sahibkarlığa böyük əhəmiyyət verilir. Bu da təbiidir. Çünki ölkəmiz inkişaf edir, güclənir, ölkəmizdə bazar iqtisadiyyatı prinsipləri geniş miqyasda tətbiq olunur. Təbii ki, bu istiqamətdə işlər bundan sonra da aparılacaq.

Ulu öndər Heydər Əliyev də bu sahəyə çox böyük diqqət yetirirdi. Məhz onun rəhbərliyi altında Azərbaycanda 1993-cü ildən iqtisadi islahatların reallaşmasına başlanıldı. Bu islahatların nəticəsində ölkəmiz inkişaf etdi, Azərbay-

canda sahibkarlar təbəqəsi yarandı. Təsadüfi deyil ki, Azərbaycanda bazar iqtisadiyyatının, demək olar ki, bütün prinsipləri öz əksini tapdı. Sonralar imzalanmış neft müqavilələri nəticəsində isə ölkəmizdə bütün sahələrdə böyük canlanma müşahidə olunur. Deyə bilərəm ki, bu, respublikanın iqtisadiyyatı ilə bərabər, bizim üçün də kiçik bir məsələ deyildi. Bu gün adambaşına xarici sərmayə qoyuluşuna görə Azərbaycan MDB-də, Şərqi Avropada liderdir və bu ənənə yüksələn xətt üzrə davam edir. Hazırda dünyada enerji sektorunda ən böyük, ən iri miqyaslı layihələr də Azərbaycanda həyata keçirilir. Azərbaycanın neft yataqlarının işlənilməsi, neft, qaz kəmərləri layihələri bir daha onu göstərir ki, xarici investorlarda Azərbaycana qarşı böyük bir inam var. Əgər bu inam olmasaydı, Azərbaycana bu qədər sərmayə qoyulmazdı. «Azərbaycanda iqtisadiyyat hərtərəfli inkişaf etməlidir. Düzdür, neft amili uzun illər ərzində hələ həlledici rola malik olacaqdır. Bu da təbiidir. Amma, eyni zamanda, bu gün iqtisadiyyatın hərtərəfli inkişafına nail olmasaq, bu, ölkəmizi gələcəkdə çətin problemlərlə üz-üzə qoya bilər. Ona görə məqsədimiz budur ki, Azərbaycanda iqtisadiyyat hərtərəfli inkişaf etsin, təkcə Bakıda yox, bütün regionlarda bu inkişaf müşahidə olunsun» - prezident İlham Əliyevin bu fikri artıq bu gün hər yerdə öz inikasını tapmaqdadır. Elə regionların inkişafına hesablanmış dövlət proqra-

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.